

**Tural Turan**

***

Yol Mehriyə, Qafanadı,
Tanrı Türkü qorusun..!
Bir qiblədi Türk adı,
Tanrı Türkü qorusun...

Dərbənd, Borçalı gəlir...
Gülür, bax, üzü gülür,
Türk də türklüyün bilir,
Tanrı Türkü qorusun...

Makudan Mərəndədək,
Birləşər bizə tək-tək!
Kəngərdən əsir külək,
Tanrı Türkü qorusun...

Ərdəbil coşur, bu gün
Nəğmələr qoşur, bu gün...
Kür, Araz daşır bu gün,
Tanrı Türkü qorusun...

Təbrizə bax, Təbrizə,
Gül düzüb yola, rizə...
Qucaq açır bax, bizə
Tanrı Türkü qorusun...

Nadir şahın şəhəri -
Tehrandır, baxır bəri!
Odur düşmən sipəri -
Tanrı Türkü qorusun...

Bor çalada qurd olur,
Basdığı yer yurd olur.
Türk yumruğu sərt olur,
Tanrı Türkü qorusun...

Qars da bizim, Urmu da!
Dünya bütöv - yumruda...
Bilək göstər Nəmruda -
Tanrı Türkü qorusun...

Tural Turan, de bərkdən,
Türkəm! - sözlə ürəkdən!
Məst ol ulu diləkdən -
Tanrı Türkü qorusun..!